# GLAMPING & HOUSE

TəQDİMAT







GLAMPING
& HOUSE



# “GLAMPING” NƏDİR?

“Glamping” şəhərin səs-küyündən uzaq, təbiətdə həyəcan, təcrübə və xoş hisslər bəxş edən yeni turizm növüdür.

**Burada turistlər təbiət ilə iç-içə olsalar da, çətin şərtlərdən uzaq olmağı, lüksü və komfortu sevirlər. Onlar üçün təbiətə yaxın olmaqla yanaşı, bu zamanı rahatlıq içində keçirmək önəmlidir.**



GLAMPING & HOUSE





# HAQQIMIZDA

«Glamping&House» hotel layihəsi Azərbaycanda ilk dəfə tərəfimizdən həyata keçiriləcək. Layihənin əsas məqsədi təbiətə heç bir zərər vurmadan ölkəmizə gələn turistlər üçün yeni bir istirahət növü təklif etməkdir. Şirkət «Glamping&House» layihəsini həyata keçirməklə yanaşı, həmin evlərin istehsalını da təmin edəcək.

GLAMPING & HOUSE

## Bundan əlavə, layihə ölkəmiz üçün böyük önəm kəsb edir, çünki eko evlər:

### KOMFORTLUDUR

Gələn qonaqların rahatlığı üçün hər şey nərəzə alınıb: wi-fi, kondisioner, vanna otağı, mətbəx, terras və s. Bundan əlavə, layihənin həyata keçiriləcəyi ərazidə alış-veriş mərkəzi, restoran və konfrans zalının da hazırlanması planlaşdırılır.

### TƏBİƏTİN DOSTUDUR

Layihənin həyata keçiriləcəyi ərazidə heç bir qazıntı və tikintiyə yol verilmir. Bundan əlavə, bu evlər tamamilə ekoloji təmiz materiallardan hazırlanır. Müsbət cəhətlərdən biri də, burada elektrik enerjisinin günəş panelləri vasitəsilə təmin olunması nəzərdə tutulub.

### MÜASİRDİR

Qonaqlar ağıllı sistem ilə idarə olunan hotel ərazisinə daxil olduqda, onlara xüsusi cihaz təqdim olunacaq. Bu sayədə otaqda olan hər şeyi cihaz ilə idarə edəcəklər: işıqlandırma, kondisioner, vanna otağı və s.

### TAMAMİLƏ TƏHLÜKƏSİZDİR

Eko evlərdə bütün təhlükəsizlik tədbirləri nəzərə alınıb. Hər bir evdə yanğınsöndürmə balonları və siqnalizasiya sistemi quraşdırılması nəzərdə tutulub, həmçinin, evlərdə quraşdırılan ağıllı sistem hər hansısa bir fors major vəziyyətdə mərkəzə vaxtında məlumat ötürmə qabiliyyətinə sahibdir.

# Ənənəvi kempinq və “Glamping” fərqi:





| Ənənəvi kempinq | “Glamping” |
|---|---|
| Yataq tulumu | Rahat yataqlar |
| Duş qəbul edə bilməmək | Otaq daxilində lüks vanna otağı |
| Konservləşdirilmiş yeməklər | Restoran və bar |
| Cib fənəri | İşıqlandırma sistemi və internet |

GLAMPING & HOUSE

GLAMPING & HOUSE

# Rahatlığınız üçün dizayn edilmiş Geo-evlər:

Layihə çərçivəsində eko evlər geo-günbəz modelindən, qısaca, geo-evlər olaraq quraşdırılacaq.
Biz geo-evləri inanılmaz ərazilərdə qura bilərik: dağlarda, göllərə yaxın, meşələrin dərinliklərində və s., çünki onlar təhlükəsiz olduqları qədər, quruluşları və strukturu şəraitə uyğundur. Belə ki, geo-evlər gələn qonaqları kənar təsirlərdən yetərincə qorumaq gücündədir. Burada istirahət edən qonaqlar uyğun atmosferdə, təmiz havadan zövq alaraq zaman keçirəcəklər.







# Geo - evin özəllikləri

GLAMPING & HOUSE

## Təhlükəsizlik

Geo-evlər -70 dərəcədən, +50 dərəcəyədək hava şəraitinə dözümlüdür.

## İstənilən ölçüdə olur

Onları istənilən ölçüdə hazırlamaq mümkündür: istər kiçik, istər böyük ölçüdə quraşdırıla bilər.

## Tez hazırlanır

Geo-evlərin hazırlanmasına olduqca az vaxt sərf olunur.





## Kreativ dizayn

Geo-evlərin strukturunda zəruri olaraq günbəz modelindən istifadə edilir. Material olaraq metal karkasdan və PVC tentdən hazırlanır. Dizaynında isə əlavə dəyişikliklər etmək mümkündür: iki tərəfdən qapı, pəncərə və s.

## Gözəl panorama görüntüsü

Geo-evlərin günbəz modelində hazırlanmasının ən əsas səbəblərindən biri təbiətin evlərdən hərtərəfli görsənməyinə şərait yaratmaqdır.

Bu quruluşda olduğu üçün qonaqlar evdə olduqda belə ətraf mühitin gözəlliyini rahatlıqla seyr edə bilirlər.



## Uzunömürlü

Şəraitdən və olduğu ərazidən asılı olaraq geo-evlər 15 il və daha artıq istifadə üçün yararlıdır. Karkas günbəz formasında olduğu üçün ağırlıq hər bir tərəfə bərabər paylanılır və bu, onu daha dözümlü edir. Bu sayədə onların quruluşunda dayaqlardan istifadə edilmir və istirahət etməyiniz üçün sizə evdə daha geniş ərazi qalır.



## Modul dizaynı

Bir neçə geo-evi bir-birinə yaxın hazırlayıb aralarında keçid qoymaq mümkündür. Beləliklə, böyük qruplar halında gələn qonaqları bir-birinə yaxın yerləşdirə bilərik.



## Komfortlu şərait

Təbiətlə iç-içə olmaq, təmiz havada istirahət etmək çox gözəldir, lakin dincələrkən rahat şərait, eyni zamanda gigiyena olduqca vacibdir.

Geo evləri xüsusi edən əsas cəhəti komfortlu ayaqyolu və hamam otaqlarının olmasıdır. Beləliklə, həm təbiətin gözəlliyindən, yaşıllıqdan zövq alaraq istirahət edəcəksiniz, həm də gigiyena qaydalarına riayət edərək komfortunuzdan geri qalmayacaqsınız.



# Diqqətinizə görə təşəkkür edirik!